# O, şagirdlərinin saçları qar, ömrü bahar müəllimi idi

**O, Tanrının ona yazdığı ömür payını tək yaşamadı, yüzlərin, minlərin ömrünə payladı. Sevib-seçdiyi peşəsini elə zirvəyə qaldırdı ki, o yüksəklikdən mayak kimi ömürlərə, yollara işıq saça bilsin.**

Adını, tərifini eşitsəm də, həyatda ilk dəfə düz 15 il əvvəl, 2004-cü ilin fevralında görmüşdüm. Əyilmiş qaməti, bəmbəyaz saçları, alnının, sifətinin qırışları, titrəyən barmaqları uzun bir ömür yolundan xəbər verirdi. Bu yaşda kreslo arxasında oturub, böyük bir kollektivi idarə etmək adama lap yuxu kimi gəlirdi. üzbəüz oturmuşduq. Sözün düzü, fikirlər məni dolaşığa salmışdı, hardan, nədən başlayacağımı da bilmirdim. "Buyurun, eşidirəm sizi..." Bu inamlı, qətiyyətli, bir qədər də zabitəli səs olmasaydı, bəlkə də fikir məni öz qanadlarında hələ çox uzaqlara aparacaqdı. Gəlişimin məqsədini bilirdi, əvvəlcədən razılaşdırmışdıq: "Bizim işimiz belədir, sizinlə görüşməyə vədələşmişdik, ancaq vəziyyət bir qədər dəyişib, mən təcili Təhsil Nazirliyinə getməliyəm, tapşırmışam, sizə işləmək üçün şərait yaradacaqlar. Sağlıq olsun, sizinlə söhbətimiz bir başqa vaxta qalsın"- deyib köməkçisini çağırdı. Bir daha üzrxahlıq edib otaqdan çıxdı. Daha doğrusu, yumaq kimi yumrulanmış həmsöhbətimin qoluna girib otaqdan çıxmasına kömək etdilər. Bu, bizim həm də son görüşümüz oldu... 2004-cü il aprelin 3-də müəllimlər müəllimi, bütün ömrünü məktəblə yaşayıb, məktəblə nəfəs alan, həyatının son gününə qədər sevimli işindən ayrılmayan Əməkdar müəllim, "Şöhrət" ordenli Sona xanım Tağıyeva 89 yaşında dünyasını dəyişdi.

Azərbaycan təhsilinin cəfakeşlərindən biri, şəxsiyyəti sözün həqiqi mənasında, hər bir müəllim, hər bir ziyalı üçün vətəndaşlıq nümunəsi olan Sona Tağıyeva 60 ilə yaxın bir müddətdə öz idarəetmə qabiliyyəti, tərbiyəedicilik məharəti ilə rəhbərlik etdiyi pedaqoji kollektivin uğurlarının təminatçısı oldu, məhz bu keyfiyyətlərinə görə həmişə diqqət mərkəzində qaldı, vətəninə, xalqına təmənnasız xidmət etdi...

Düşünürəm, bu gün, müəllimlərin peşə bayramı ərəfəsində onu bir daha xatırlamağa dəyər! Mənalı, şərəfli həyat yolunu, ömür dəftərini, gəlin bir daha vərəqləyək, bəlkə ruhunu şad edə bildik...

Sona Tağıyeva 1916-cı il yanvarın 3-də Bakıda doğulub. Hələ kiçik yaşlarından müəllim olmaq arzusunda idi. Məktəbdə oxuyarkən "Savadsızlığın ləğvi" klubunun üzvü kimi evlərə gedir, çətinliklə ərlərindən icazə alan qadınları bir yerə toplayıb, onlarla məşğul olurdu. Bu ictimai vəzifə onun müəllim olmaq həvəsini daha da artırırdı. Məktəb şagird komitəsinin sədri kimi, şagirdlər arasında təlim-tərbiyə işinin yüksək səviyyədə qurulmasına məsuliyyət daşıyır, müəllimlərlə birlikdə pedaqoji şurada iştirak edirdi. Bax, müəllimliyin nə qədər məsuliyyətli, şərəfli bir sənət olduğunu da elə o vaxtlar hiss etmişdi.

Ağır günlər idi, Böyük Vətən Müharibəsi yenicə başlamışdı. Azərbaycan Dövlət Universitetinin biologiya fakültəsini bitirib 173 saylı məktəbə müəllim təyin olunmuşdu. Məktəb binalarının çoxu hərbi xəstəxanalara çevrildiyindən üç məktəbin şagirdləri buraya toplanmışdı. Çətin idi, həm də çox çətin. İki ay işlədikdən sonra ona həmin məktəbin tədris hissə müdiri vəzifəsi etibar edildi. Gənc olmasına baxmayaraq, Sona həvəslə, böyük ümidlə işləyir, müharibənin qələbə ilə qurtaracağına çox inanırdı. Şagirdlərində də bu inamı yaradır, onların təhsillərini davam etdirmələri üçün məktəbdə şərait yaratmağa çalışırdı.

1945-ci ildə müharibə qələbə ilə başa çatandan sonra hərbi xəstəxanalar boşaldıldı, məktəblər yenidən istifadəyə verildi. Sona Tağıyeva 190 saylı məktəbə direktor təyin olundu və ömrünün sonunadək bu vəzifədə qaldı. O, ən qısa zamanda bu məktəbi qabaqcıllar sırasına çıxardı. Müəllim kollektivinin iş təcrübəsi nəinki respublikamızda, qonşu respublikaların təhsil işçiləri tərəfindən də təqdir olunur, öyrənilirdi. Hətta xarici ölkələrdən də gələn olurdu. Bütün bunlara görə məktəbə Azərbaycan SSR Ali Sovetinin fəxri fərmanı, SSRİ Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin I dərəcəli diplomu, nəhayət "Qırmızı Əmək Bayrağı" ordeni verilmişdi. Məktəbin müəllimlərindən 7 nəfəri respublikanın Əməkdar müəllimi, 20 nəfəri qabaqcıl maarif xadimi, 1 nəfəri Sosialist Əməyi Qəhrəmanı fəxri adı almış, 1 nəfər "Krupskaya" medalı ilə təltif olunmuş, 1 nəfər də SSRİ Ali Sovetinin deputatı seçilmişdi. Bunlar isə sovet dönəminin ən ali mükafatları idi və səmərəli əməyin, böyük zəhmətin hesabına əldə olunmuşdu. Rəhbərlik etdiyi məktəbin uğurlarından qürurla danışan Sona xanım deyirdi: "Bütün bunlar nə qədər gözəl, nə qədər fərəhlidir. Hər bir sənət sahibi öz işinin bəhrəsini göründə sevinir. Müəllim sənətinin bəhrəsi böyük və qiymətlidir. Ona görə ki, bütün alim, mütəxəssis və sənətkarlar müəllimlərin yetirmələridir. Onlara elmlərin əsasını müəllim verir, müstəqil həyata hazırlayır.

Mən çox xoşbəxtəm ki, həyatda özümə ən çətin, ən şərəfli və müqəddəs bir sənət seçmişəm. M.İ.Kalinin demişdir: "Müəllim ən məsuliyyətli işlə məşğuldur. O, insan yetişdirir". Arzularım çox olub. Müəllimliyə ilk başladığım zamanlarda qocaman müəllimlərin xalq arasındakı hörmətini görüb onlara həsəd aparar: "Nə xoşbəxt adamdır, ona belə hörmət edirlər"-deyərdim. İndi hər kəs məni hörmətlə qarşılayır, tərbiyə etdiyim övladlar üçün təşəkkür edir. İnsan üçün bundan böyük mükafat ola bilməz."

Sona xanımın vəfatı Azərbaycan təhsili üçün ağır itgi idi. Bu münasibətlə o zaman təhsil naziri işləyən Misir Mərdanov yazırdı: "Sona xanıma xalqın, pedaqoji cəmiyyətin hörmətini dövlət həmişə yüksək qiymətləndirib -istər sovet dövründə, istərsə də müstəqillik illərində. 1995-ci ildə Azərbaycan maarifinin inkişafı sahəsində böyük xidmətlərinə görə milli öndərimiz Heydər Əliyev tərəfindən Sona xanıma "Şöhrət" ordeninin verilməsi isə onun mənalı ömrünün ən böyük qiyməti idi. Sona xanım bu mükafatı bütövlükdə Azərbaycan məktəbinə diqqətin, dərin duyğunun təzahürü hesab edirdi".

Bu ustad pedaqoqa ümumimilli liderimiz Heydər Əliyev də yüksək dəyər verirdi. Görüşlərin birində onun haqqında bu fikirləri söyləmişdi: "Fəxr edirəm ki, Sona xanım kimi müəllim var. Bu gün Sona xanımı göründə daha çox sevindim. Sona xanımın rəhbərliyi altında minlərlə adam təhsil və tərbiyə alır, hazırda ölkəmizdə və onun hüdudlarından kənarda müxtəlif sahələrdə işləyirlər. Bunların hamısı müəllimin xidmətidir. Mən Sona xanımın xidmətindən danışarkən,



ümumiyyətlə, müəllimin xidmətini nəzərdə tuturam".

"Kollektivdən öyrənmək və öyrətmək". Sona müəllimin şüarı belə idi, o, öyrənir və öyrədirdi. Uğurlarını heç vaxt öz adına çıxarmaz: "Bunlar hamısı müəllimlərimizin əməyinin, kollektivin birgə səyinin nəticəsidir" -deyərdi. Şagirdlərinin gözəl, saçları qar, ömrü bahar müəllimi idi Sona xanım. Fənnini o qədər yüksək səviyyədə tədris edərdi ki...

Sona Tağıyeva pedaqoji mətbuatı sevən, qabaqcıl təcrübəni öyrənib təbliğ edən bir şəxs idi. Bir dəfə Moskvada böyük pedaqoji məclislərin birində gözlənilmədən Sona xanıma çıxış üçün söz verilir. O, kürsüyə qalxır və öz çıxışı ilə həmkarlarını heyran qoyur. Çıxışının sonunda təklif edir ki, pedaqoji sahəni əhatə edən qəzetlər həftədə bir deyil, bir neçə dəfə çıxsın. Tənəffüs zamanı mərkəzi mətbuat olan "Учительская газета"nın baş redaktoru Parfonova Sona xanımı bağrına basıb deyir: "Ən yaxşı çıxış sizin çıxışınız oldu". O vaxtdan həmin qəzet həftədə üç, "Azərbaycan müəllimi" isə iki dəfə nəşr olunmağa başlayır.

O, belə yaşadı, öz ocağının ətrafına yığdığı insanlara yaxşılıq etməkdən usanmadı, öyrətməkdən yorulmadı, təbiətinə yaraşan sadəliyi ilə özünü hər kəsə sevdirdi. Rəhbərliyi altında çalışanlar həmişə onunla qürur duydu. Dövlət tədbirində çıxış üçün kürsüyə yaxınlaşanda mərhum Prezidentimiz Heydər Əliyevin ayağa qalxaraq onun ağ saçlarından, əllərindən öpdüyü məqamların həyəcanını, sevincini yaşayıb, bu xalqın duyumu, səmimiyyəti, məhəbbəti hər şeydən yüksək qiymətləndirdiyinin şahidi oldular.

Sona xanım təkcə bacarıqlı təşkilatçı, nümunəvi rəhbər, gözəl pedaqoq... deyildi, həm də gözəl ana, həyat yoldaşı, sevimli nənə idi. Uzun illər maarif sahəsində çalışan ömür-gün yoldaşı Mircəfər Bağırovla birgə dörd övlad böyüdüb boya-başa çıxarmışdılar. Qızları Səidə geoloq, Alidə bioloq, Xalidə riyaziyyatçı, oğlanları Vasif isə iqtisadçı idi. Qızları Xalidəni cavankən itirmişdilər, onun bir oğul yadigarı qalmışdı. Bax, Sona xanım həyatın bu üzünü də görmüş, övlad itkisinin acısını da yaşamışdı. Onu sevimli işindən isə heç nə ayıra bilməmişdi...

Vaxtilə məktəbin foyesində divara Mustafa Kamal Atatürkün aşağıdakı sözlərini yazdırmışdı: "Ən böyük şəxsiyyət özündən çox, mənsub olduğu cəmiyyəti düşünən, onun varlığının və xoşbəxtliyinin qorunması yolunda həyatını verən insanlardır". Sona Tağıyeva belə şəxsiyyətlərdəndir...

**Zümrüd QURBANQIZI,**
**"Respublika".**